

# Ömər Faiq Nemanzadə

## 1832-1937

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası




# ANA DİLİNİN YORULMAZ TƏBLİĞATÇISI

## METODİK VƏSAİT

BAKI-2022

**Tərtibçi:** Şəlalə Cəfərli

**Elmi redaktor**: Aslan Cəfərov

**Redaktor:** Tamella Məmmədova

**Ana dilinin yorulmaz təbliğatçısı:** Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları üçün metodik vəsait /tərt.ed. Şəlalə Cəfərli; elmi.red. Aslan Cəfərov; red. Tamella Məmmədova.- Bakı: Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası,2022.-22s.

**©Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası,2022**

**Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI



2022-ci ilin dekabr ayında Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, tanınmış maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadənin anadan olmasının 150 ili tamam olur.Ömər Faiq Nemanzadə XX əsrin əvvəllərində Azərbaycan mətbuatı tarixinə parlaq səhifələr yazmış və son dərəcə mürəkkəb şəraitdə onun inkişafına istiqamət verərək keyfiyyətcə yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış maarifpərvər ziyalılardandır. Ədəbi-mədəni həyatda mühüm hadisəyə çevrilmiş "Qeyrət" mətbəəsinin və Yaxın Şərq ölkələri ədəbiyyatında demokratik meyillərin güclənməsinə qüvvətli təsir göstərmiş məşhur "Molla Nəsrəddin" jurnalının yaradılması ədibin gərgin və səmərəli fəaliyyətinin ayrılmaz tərkib hissələridir. Ana dilinə sevgini vətənə məhəbbətin ən vacib şərti sayan geniş erudisiyalı, fədakar qələm sahibi doğma xalqının mədəni dirçəlişi, istiqlalı və xoşbəxt gələcəyi naminə bilik və bacarığını əsirgəmədən əzmlə mübarizə aparmışdır. Ümumxalq əhəmiyyəti daşıyan bütün taleyüklü məsələlərin zamanın qabaqcıl ideyaları fonunda daim azərbaycançılıq məfkurəsi cəbhəsindən işıqlandırılması Ömər Faiq Nemanzadənin milli ideyalarla zəngin və dərin siyasi-ictimai məzmuna malik publisistik irsinin başlıca leytmotivini təşkil etmişdir.

Dövrün vətənpərvər ruhlu bir çox şəxsiyyətləri kimi Ömər Faiq Nemanzadə də totalitar sovet rejiminin 1930-cu illər repressiyasının qurbanlarından olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan milli mətbuatının inkişafına dəyərli töhfələr vermiş görkəmli maarifçi-ziyalı Ömər Faiq Nemanzadənin anadan olmasının 150-ci ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

**1**. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Ömər Faiq Nemanzadənin 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2**. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 3 oktyabr 2022-ci il**

# TƏRTİBÇİDƏN

Azərbaycan milli mətbuatının inkişafında mühüm xidmətləri olan ziyalılardan biri Ömər Faiq Nemanzadədir. Bizim mübarizə tariximizdə, xalqımızın ictimai və milli şüurunun oyanması və formalaşmasında onun xüsusi mövqeyi vardır. XX əsrin ilk günlərindən başlayaraq Azərbaycan xalqının milli dirçəlişi, azadlığı və xoşbəxtliyi uğrunda cəsarətlə mübarizə aparanlardan biri də o idi.

Dərin biliyə, elmi dünyagörüşə, bütöv xarakterə malik olan Ö.F.Nemanzadə vətəni və xalqı üçün döyünən hərarətli bir qəlb sahibi idi. O, xalqın xoşbəxtliyi üçün heç vaxt öz qüvvə  və bacarığını əsirgəməmişdi. Buna görə də dövrün demokratik ziyalıları arasında böyük hörmət və nüfuz qazanmış Faiq əfəndinin adı uzun müddət dillərdən düşməmiş, hörmət və məhəbbətlə çəkilmişdir.

Təqdim olunan bu vəsaitdə Ö.F.Nemanzadənin həyat və fəaliyyəti haqqında məlumat, dahi ziyalının irsinin kitabxanalarda geniş təbliği məqsədilə müxtəlif kütləvi tədbirlərin həyata keçirilməsinə dair tövsiyələr, sonda isə həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxslərin Faiq haqqında söylədiyi fikirlər və ədəbiyyat siyahısı verilmişdir.


Ünvan : Bakı şəhəri, Nəriman Nərimanov prospekti, 203.

Telefon : 012 538 54 46,

012 538 93 54

012 538 54 57.

E-Mail: ryl.az@mail.ru







# ÖMƏR FAİQ NEMANZADƏ

Bu xatirə yeri 20-ci əsrin növündə Qafqazın ən parlaq tarixi şəxsiyyətlərindən və bütün türk dünyasını əhatə edir. Aydınlatıcı, satirist, publisist. Molla Nəsrəddin jurnalının qurucusu və naşiri (1905-cı ildən 1917-cü ilədək) – Ömər Faiq Nemanzadə (1872-1937). Türk xalqlarının milli şəxsiyyət, sosial formalaşma və mədəniyyət prosesləri üçün parlaq və başa düşülən bir katalizator idi. Onun narahatlığı və durğunluğun səbəbləri və sosial həyatın inkişafı hələ də böyük maraq doğurur.

*Prof Şamil Qurbanov, Baki 1992*

Azərbaycan demokratik milli mətbuatının yaranması və inkişafında mühüm xidmətləri olan ziyalılardan biri Ömər Faiq Nemanzadədir. Bizim şanlı mübarizə tarixində, xalqımızın ictimai milli qürurunun oyanması və formalaşmasında onun xüsusi yeri və mövqeyi vardır. XX əsrin ilk illərindən başlayaraq Azərbaycan xalqının milli və mədəni dirçəlişi, azadlığı və xoşbəxtliyi uğrunda cəsarətlə və ehtirasla mübarizə aparanlardan biri də o idi.

Dərin biliyə, elmi dünyagörüşə, bütöv xarakterə malik olan Ö.F.Nemanzadə vətəni və xalqı üçün döyünən hərarətli bir qəlb sahibi idi. O, xalqın xoşbəxt gələcəyi üçün heçvaxt qüvvə və bacarığını əsirgəməmişdir. Buna görə də dövrün demokratik ziyalıları arasında böyük hörmət və nüfuz qazanmış Faiq əfəndinin adı uzun müddət dillərdən düşməmiş, hörmət və məhəbbətlə çəkilmişdir. Yalnız onu qeyd etmək kifayətdir ki, Ömər Faiq "mollanəsrəddinçilər" adı ilə məşhur olan fikir cərəyanının ideya rəhbəri Cəlil Məmmədquluzadənin məslək yoldaşı, əvəzsiz köməkçisi və ən sədaqətli cəbhədaşı olmuşdur. Ö.F.Nemanzadənin adı çəkiləndə birinci növbədə " Molla Nəsrəddin" jurnalı xəyalımıza gəlir. Bu, təsadüfi deyildir, çünki bu jurnalın nəşri və fəaliyyətində Nemanzadənin rolu əvəzsizdir.

Ö.F.Nemanzadə 1872-ci ildə keçmiş Axalsıx qəzasının Azğur kəndində, ortabab bir kəndli ailəsində anadan olmuşdur. O, bir neçə il molla məktəbinə getsə də, dinə maraq

göstərməmiş və yenicə açılmış rus məktəbinə daxil olmuşdur. Atası onu Qori müəllimlər seminariyasına vermək istəyirdi. Lakin dindar qadın olan anasının etiraz etməsi buna mane olmuş və anasının təkidi ilə uşaq 1882-ci ildə İstanbula, Fateh məktəbinə göndərilmişdir. Ömər Faiq anasının böyük ümidlər bəslədiyi “Mübarək İstanbulda” dinin əsaslarını öyrənməkdən, cansıxıcı tədris üsulundan tezliklə imtina edir və nisbətən dünyəvi elmlərə meyilli olan “Darüş-şəfəq” adlı yetimlər məktəbinə dəyişilir.



*İstanbul, Darüşşəfəq*

Ömər Faiq 1891-ci ildə İstanbulda təhsilini başa vurub Qalata poçtxanasında işə başlayır. Avropa ilə canlı əlaqə onun dünyagörüşünün gələcək inkişafında mühüm rol oynayır, çünki o, burada gizli olaraq qəzet və jurnalları açıb oxuyur, Avropadakı demokratik ruhlu türk mühacirlərinin əhvali-ruhiyyəsi, onların Əbdülhəmid hökümətinə son dərəcə mənfi münasibətli türk inqilabçı şairlərindən Tofiq Fikrət, Namiq Kamal və başqalarının bədii irsi ilə tanış olur. Bu vaxtdan etibarən Ömər Faiq istibdada qarşı mübarizə aparan inqilabçı gənclərə qoşulub, bir müddət onlarla əməkdaşlıq edir. Onların gizli fəaliyyətinin üstü açılanda Faiq çətinliklə qaçıb Vətənə gəlir. Lakin tezliklə fanatiklər onu “kafir Ömər” deyə məclislərdən qovurlar. Hətta həmin illərdə onun doğma Azğur kəndində açmaq istədiyi yeni məktəbi də hökümətə çuğullayıb icazəsinə mane olurlar. O, "*Mədəniyyətmi, səfahətmi*" məqaləsində yazırdı:

*Dinəndə yandı dilim, dinməyəndə dil yandı,*
*Nə dərdi gizlədə bildim, nə aşikar elədim*



*Şəki, üsuli-cədid məktəbi*

Ömər Faiq o zaman cavan, enerjili, işıqlı ideyalara malik, formalaşmış ziyalı idi. Lakin onu da hiss edirdi ki, dini zehniyyəti, inkişafa mane olan adət-ənənələri birdən-birə

aradan qaldırmaq mümkün deyil. Özü sonra "Xatirələrdə" yazırdı: "Keçmiş həyatın, adətin doğurduğu üsul və həyatı yıxıb təzə yollara keçmək üçün uzun–uzadı ictimai, inqilabi və elmi hazırlıq lazımdır. Bunsuz, bu hazırlıqsız yeni bir maarif və mədəniyyət işi görmək və görülən işdə müvəffəqiyyət qazanmaq çətindir."

Bunu başa düşən və dərk edən Ömər Faiq fəaliyyətinin ilk illərində həmin çətinlikləri aradan qaldırmaq üçün müxtəlif yollar axtarır, Azərbaycanın demokratik ruhlu vətənpərvər oğullarına qoşulur və 1892- ci ildən etibarən taleyini büsbütün onlara bağlayıb ömrünün axırlarına qədər bütün qüvvəsini, bilik və bacarığını xalqının azadlığı uğrunda mübarizəyə yönəldir. Ö.F.Nemanzadə 1894-cü ildə Şəkiyə müəllim dəvət olunur. Bir müddət Şəkinin təzəcə açılmış ilk üsuli-cədid məktəbində dünyəvi elmlərdən dərs deyir, şəhərin ictimai və mədəni həyatında fəal iştirak edir.

Ömər Faiq 1900-cü ildə Bakıya da gəlmişdi. Burada da "üz ağardıcı" bir şey görməmişdir. O, Bakını belə xatırlayırdı:"Ən böyük türk milyonerləri, ən nüfuzlu axundlar, ən böyük fanatiklər, ən qorxulu maarif düşmənləri, ən birinci millət xainləri burda idi." Onu sevindirən təkcə Bakı milyonçusu H.Z.Tağıyevin açdığı müsəlman qız məktəbi idi ki, onun haqqında İstanbulda çıxan "Sərvəti-fünün" məcmuəsinə "Xeyri-məzlumə" adı ilə məqalə yazıb xoş təəssüratını bildirmişdir.

## "Şərqi-Rus" qəzetindəki fəaliyyəti

1903-cü ildə Tiflisdə "Şərqi-Rus" qəzetində C.Məmmədquluzadə ilə xoş təsadüf onun gələcək fəaliyyətində mühüm rol oynayır. Redaktorun və onun qəzetə cəlb etdiyi din xadimlərinin təzyiqinə baxmayaraq Ömər Faiq "ürəyinin arzularını boşaltmağa" çalışır və çox vaxt buna nail olurdu. Doğrudur, bunlar ona bəzən baha başa gəlirdi: ya din xadimlərinin məzənnəti, küfr və lənəti ilə qarşılaşır, ya da M.Şaxtaxtinski ilə münasibəti kəskinləşir, hətta redaksiyadan uzaqlaşdırılır, öz sözləri ilə desək qovulurdu.

Qəzeti dostu və havadarı C.Məmmədquluzadə idarə edəndə Ömər Faiqin əl-qolu açılır, "istəkli günləri" başlayırdı və o, köhnəliyə, dini təəsübkeşliyə, "ikiüzlü, pula satılan " ziyalılara atəş açır, milli dərdləri və onların müalicə yollarını öz dünyagörüşü dairəsində göstərməyə cəhd edirdi.

1905-ci ilin yanvarında "Şərqi-Rus"qəzeti borca düşüb bağlandı və M.Şaxtaxtinski mətbəəni satmaq qərarına gəldi. Bu elə bir dövr idi ki, ölkəni başdan-başa birinci rus inqilabının dalğaları bürümüş, onun sədaları Qafqaz dağlarını da sürətlə aşaraq hər yerə yayılmışdı.

Belə bir dövrdə "Şərqi-Rus"un bağlanması və onun mətbəəsinin satışa qoyulması Ömər Faiqlə Cəlil Məmmədquluzadənin birgə fəaliyyətinin yeni dövrünə yol açdı, onlar məhz "Rusiya inqilabi hərəkatından doğmuş bir inqilab yavrusu" olan "Molla Nəsrəddin" kimi jurnalı yaratmağa və dövrün əsas demokratik qüvvələrini ətrafına toplayıb mövcud ictimai quruluşa qarşı atəş açmağa imkan əldə etdilər.

Yeni mətbəə "Qeyrət" adı ilə 1905-ci ilin mart ayında fəaliyyətə başlayır. Bununla da Azərbaycan ədəbi-mədəni həyatında yeni bir mərhələ açır. Mollanəsrəddinçilər adı ilə məşhur olan fikir cərəyanı məhz "Qeyrət" mətbəəsində ilk ideya mübarizəsinə qədəm qoyur.

"Qeyrət" mətbəəsi həqiqətən qeyrət naminə, Azərbaycan xalqının ictimai şüurunun oyanmasına kömək məqsədilə açılmış "ilk mədəni müəssisə idi." Mətbəə geniş fəaliyyətə

başlayandan sonra Ömər Faiq Mirzə Cəlillə birlikdə yeni mətbuat orqanı yaratmaq fikrinə düşdü və əvvəlcə "Torpaq" adlı jurnal çıxartmaq üçün hökumətə müraciət etdi. Lakin Baş mətbuat idarəsi Ömər Faiqin Türkiyədə təhsil aldığını bəhanə edib jurnalın nəşrinə icazə vermədi. Nəhayət, hər iki dost 1906-cı ildə məşhur "Molla Nəsrəddin" jurnalının nəşrinə nail oldu.

## "Molla Nəsrəddin" jurnalındakı fəaliyyəti

Rəsmi redaktoru Cəlil Məmmədquluzadə, əsas yazarı isə Ömər Faiq idi. Mirzə Cəlil olmayanda Faiq əfəndi jurnalda "sahibi-ixtiyar" idi. Bundan sonra Ömər Faiqin publisistik fəaliyyətinin çiçəklənmə dövrü başlayır. O, redaksiyada Mirzə Cəlilin əvəzsiz köməkçisinə çevrilir. Ömər Faiq yazır ki, onlar jurnalın planını müəyyənləşdirərkən onun "mütləq şəkilli olmasına" fikir vermək qərarına gəlmişlər. Çünki yenə də onun fikrincə, xalq öz düşmənlərinin "canlı surətdə, gülməli şəkildə" məsxərəyə alındığını, ifşa edildiyini görəndə sevinəcək, "Molla Nəsrəddin"in simasında öz himayəçisini görəcəkdir. Belə də oldu. Ömər Faiqin xatirəsində oxuyuruq:"Jurnala olan rəğbət ancaq və ancaq geniş kütlə tərəfindən idi. Bəylərdən, dövlətlilərdən, ruhanilərdən ətək-ətək söyüş, lənət və hədə kağızları alırdıq. Jurnala yuxarı təbəqədən nifrət, aşağı təbəqədən hörmət yağırdı." "Molla Nəsrəddin" jurnalının birinci nömrəsinin bütün yükü, ağırlığı Mirzə Cəlillə Ömər Faiqin üzərinə düşmüşdü. Materialların hamısını özləri hazırlamış, şəkillərin mövzusunu özləri vermiş, teleqraf xəbərlərini, tapmacaları da bir yerdə tərtib etmişdilər... Belə bir məsələni də qeyd etmək lazımdır ki, Ömər Faiqin jurnalda bir sıra kəskin siyasi çıxışları hakim dairələrdə kin, qəzəb oyandırdısa, kütlə arasında, demokratik ziyalılar içərisində ona qarşı geniş rəğbət yaradırdı. 1907-ci ildə o, jurnalda dərc etdiyi karikaturalardan birində Sultan Əbdülhəmidi Avropa dövlətləri qarşısında meymun şəklində təsvir etdiyi üçün həbs olunmuş, lakin geniş xalq kütləsinin tələbi ilə 2 aydan sonra azad edilmişdir. M.Ə.Sabir Ömər Faiqin hökümət tərəfindən təqib olunmasına işarə edərək 1907-ci ildə "Molla Nəsrəddin" jurnalında dərc etdirdiyi "Töhmət" adlı şeirində




çox mənalı və yumoristik şəkildə yazırdı:" Molla Nəsrəddin"də Ömər Faiq Nemanzadə, M.Ə. Sabir, Ə. Haqverdiyev, Ə. Nəzmi, Ə. Qəmküsar, M. S. Ordubadi, Mirzəli Möcüz və digər şair, yazıçı və jurnalistlər, habelə O. Şmerlinq, İ. Rotter, Əzim Əzimzadə kimi tanınmış rəssamlar fəaliyyət göstərirdilər. Cəlil Məmmədquluzadə Əliqulu

Qəmküsarın ölümünün beşilliyi münasibətilə yazdığı məqaləsində qeyd etdirdi ki, " Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil, "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın əsərlərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam." Satirik gülüş dərin məzmunlu yumor jurnaldakı yazıların əsasını təşkil edirdi. Jurnalın ilk nömrələri Cəlil Məmmədquluzadə ilə Ömər Faiq Nemanzadənin gücünə çap olunurdu. Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində yeni bir üslub yaradan "Molla Nəsrəddin" ümumən ədəbiyyatın inkişafında bir dönüş nöqtəsi oldu. Bütün Müsəlman Şərqində ilk demokratik və yeganə parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri M.Ə.Rəsulzadə "Molla Nəsrəddin" məcmuəsini Azərbaycan məzacının xəlq etdiyi bir şah əsər adlandırmışdır. Mirzə Cəlil mürgüləməkdə olan məzlum Şərqə üz tutub mənalı bir tərzdə deyirdi:" Ey mənim müsəlman qardaşlarım. Zəmani ki, məndən bir gülməli söz eşidib, başladınız gülməyə, o vədə elə guman etmiyəsiniz ki, Molla Nəsrəddinə gülürsünüz. Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və baxınız camalınıza." "Molla Nəsrəddin" əsl xalq jurnalı idi. 1906-cı ilin 10-cu nömrəsindən başlayaraq "Molla Nəsrəddin" öz oxucularına epiqraf şəklində bildirirdi: "İdarəyə göndərilən məktub və məqalələr açıq türk dilində yazılmış olmasalar, çap olunmayacaqlar." Jurnalın kəskin siyasi felyotonları, inqilabi ruhlu şeirləri, həqiqətpərəstlik və ifşaçılığı çar hökuməti, yerli burjuaziya və din xadimlərinə qarşı ardıcıl mübarizə aparması onun senzura izləməsinə, təhdid və təkfir edilməsinə səbəb olurdu. Görkəmli şair, nasir və publisist M.S.Ordubadi-"Hərdəmxəyal";Ö.F.Nemanzadə-



"Ümidvar"; şair Əli Razi – "Dabanıçatdaq xala", "Heyvərə"; Əli Məhzun –"Yetim cücə"; Bayraməli Abbaszadə - "Hammal"; Salman Mümtaz – "Xortdan bəy" imzaları ilə yazır və "Molla Nəsrəddin" səhifələrində öz satirik əsərləri ilə fəal iştirak edirdilər. Əsasən Molla Nəsrəddin təxəllüsü ilə yazıb-yaradan Mirzə Cəlil qismən də "Lağlağı", "Dəli", "Dəmdəki", "Cırcırama", "Hərdəmxəyal" və s. imzalarla jurnalda çıxış edirdi. «Molla Nəsrəddin» Yaxın və Orta Şərqdə milli-azadlıq və inqilabi-demokratik hərəkata ciddi təsir göstərmiş, beynəlxalq əhəmiyyətə malik jurnal olmuşdur. Sovet hakimiyyəti illərində ciddi təzyiq və qadağalara baxmayaraq jurnal öz mütərəqqi ənənələrini davam etdirmişdi. İctimai tərəqqiyə, elmin, mədəniyyətin inkişafına maneçilik törədən qüvvələri satira atəşinə tutmuşdur. Həmin dövrdə Ə. Haqverdiyev, Ə. Əzimzadə, Cəfər Cabbarlı, Əliağa Vahid, B. Talıblı və digər başqa ziyalılar bu jurnalla əməkdaşlıq edirdilər. Azərbaycan Respublikası

Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin kitabxanasında jurnalın 1906-1913 və 1922 -1931-ci illərdə nəşr olunan nüsxələri, Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Elmi-məlumat kitabxanasında isə jurnalın 1910, 1923, 1925-1930-cu illərdə nəşr olunmuş bir sıra nüsxələri qayğı ilə qorunub saxlanılır. Tədqiqatçılar, alimlər, Azərbaycanda mətbuatın inkişaf tarixi ilə maraqlanan tarixçilər Milli Arxiv Fondu sənədlərindən istifadə edilməsi qaydalarına riayət etməklə həmin kitabxanalara müraciət edərək bu jurnallardan istifadə edə bilərlər. Yeri gəlmişkən qeyd edirik ki, Milli Arxiv İdarəsinin rəisi, tarix elmləri doktoru Ataxan Paşayevin rəhbərliyi ilə 2009-cu ildə "Molla Nəsrəddin jurnalının nəşri tarixindən" adlı sənədlər məcmuəsi Milli Arxiv İdarəsi tərəfindən hazırlanaraq nəşr olunmuşdur. Həmin sənədlər məcmuəsi Azərbaycan mətbuatı tarixində əvəzsiz rol oynamış, XX əsr ictimai fikir və ədəbiyyat tarixində yeni dövr açmış, təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərq ölkələrində siyasi satiranın ilk qaranquşu olan "Molla Nəsrəddin" jurnalı və onun nəşri tarixinin öyrənilməsində olduqca əhəmiyyətlidir. Nəşr üçün sənədlər Gürcüstan, Azərbaycan və Rusiya arxivlərindən toplanmışdır.

"Molla Nəsrəddin" jurnalının əsas mövzularından olan qadın azadlığı problemi Ömər Faiq Nemanzadənin yaradıcılığında xüsusi yer tuturdu. Onun jurnalın 1907-ci ilin 19-cu sayında "Dərdmənd" imzası ilə dərc etdirdiyi "Xortdana məktub" felyetonu geriliyə, cəhalətə, köhnə adət-ənənələrə, qadın heysiyyətinin tapdanmasının tənqidinə həsr olunmuş maraqlı və düşündürücü publisistik nümunələrdəndir. Ədibin "Bir neçə günlüyə" adlı felyetonunda da qadın azadlığı problemi aktual bir məsələ kimi davam etdirilir. Ömər Faiq Nemanzadə şəriət qanunlarını düzgün anlamayan, onu kobudcasına pozub saxtakarlığa yol verən yalançı vaizləri, "saqqalı qırmızı, beyni sarı" mollaları tənqid hədəfinə çevirirdi. O, mənəvi-əxlaqi dəyərlərə yabançı münasibət bəsləyən fırıldaqçıları ifşa edərək yazırdı: "Biz Molla Nəsrəddinik. Bizim peşəmiz ilan-qurbağaya sataşmaqdır, biz dərd edirik ki, nə səbəb bizim millətimiz insaniyyətdən, mərifətdən, namus və qeyrətdən, dindən və şəriətdən bu dərəcə kənara düşüblər". Ömər Faiq "Molla Nəsrəddin"lə yanaşı "Həyat", "Tərcüman", "İrşad", "Tərəqqi", " İqbal", "Yeni iqbal", " Açıq söz", "Qardaş köməyi", "Azərbaycan" və s. mətbuat orqanlarında "Ömər Faiq", "Ümidvar", "Dərdmənd", "Lağlağı", "Cəhrəçi xala" və başqa imzalarla dövrün aktual problemlərinə dair kəskin məqalələrlə çıxış etmişdi. Qeyd edilən məqalələrində ( "Dərdimiz və dərmanımız", "Nə üçün haqqımızı istəmiriz?", " Ağacı qurd içindən yeyər.", "Mən kiməm?", " Molla Nəsrəddin" bağlandı, "Məzlum ən böyük zalımdır"," Alınan azadlığı nə cür saxlamalı" , "İşığımız sönməyəcək", "Çinovniklərimiz", "Milli məsələlərimizin vaxtımı?", "Həsən əminin şikayəti", "Milliləşmək", "Yazımız, dilimiz, "İkinci ilimiz", "Dilimiz və imlamız", "Müəllimlərimiz nə üçün Bakıya qaçırlar" və s.) çarizmin müstəmləkəçilik siyasətini ifşa etmiş, xalqımızın ictimai-siyasi mübarizəsini və mənəvi inkişafını, zülm və istismara, cəhalətə, fanatizmə qarşı mübarizəsini əks etdirmişdi. Ö.F. Nemanzadənin 18 oktyabr 1906-cı il tarixli 245№li "İrşad" qəzetində dərc etdirdiyi " Məzlum ən böyük zalımdır" məqaləsində xalqın zülm altında inləməsinin başlıca səbəbinin məhz onun zülmə, həqarətə, döyülməyə, əziyyətə, qorxaqlığa səbr və adət etməsində, zalımlara, müstəbidlərə ziyadə itaət etməsində görürdü. O, qeyd edirdi ki, "əsil zalım və günahkar zülm edənlər deyil, bəlkə zülmə, həqarətə səbr edənlərdir."...Bəsdir bu qədər səbr, bəsdir çəkdiyimiz bu qədər həqarət.Vaxtdır ki, cümləmiz ittifaq edib tələb edək: Cənablar, biz öz dilimizlə oxuyub dilimizi, milliyyətimizi bilmək istəyirik. Biz öz dilimizə, dinimizə məxsus olan məktəblərimizi özümüz idarə etmək istəyiriz. Biz öz xahişimizlə rusca, firənkcə,

nemescə oxuyub mərifətli, mədəniyyətli olmaq istəyirik, biz istəyirik ki, bir para milli işlərimizi özümüz idarə edib bizim adətimizdən bixəbər olan cahil və zalım qulluqçular bizim başımıza bəla olmasınlar…Bəli vaxtdır, biz də tərpənək, hüququmuzun mühafizəsinə çalışaq, haqq və musavat yolunda tökülən qanların səmayə əks edib süni şəfəqlər təşkil edən belə həngamələrdə aciz və miskinlər kimi qafilanə yatmayaq... ”



Ömər Faiqin publisistik fəaliyyətindəki əsas mənəvi-etik prinsiplərdən biri də vətənpərvərlik idi, vətənə, xalqa bağlılıq, xalqın mənəvi sərvətlərinə ehtiraslı, qayğılı münasibət idi. Lakin millətə, xalqa bağlılığı millətçilikdən yox, sözün əsl mənasında beynəlmiləlçilikdən doğurdu. O, xırda hisslərdən, milli məhdudluqdan çox uzaq idi.

Ömər Faiq milləti sevməyin birinci əlamətini onun dilini sevməkdə görürdü. Buna görə də milli dil problemi onun yaradıcılığında başlıca yer tuturdu. Bu da təsadüfi deyildi. Çünki XX əsrin Azərbaycan ziyalılarının əsas mübarizə hədəflərindən biri də milli dilə xor baxan, ona biganə olanlar idi. Dil məsələsi Ömər Faiqdə ötəri, keçici, xarakter daşımırdı.

1927-ci ildə Ömər Faiq Nemanzadənin xəstəliyini və əvvəlki mühüm xidmətlərini nəzərə alaraq ona hökumət tərəfindən ömürlük təqaüd kəsilmişdir. Lakin qocaman mətbuat işçisi yenə də boş dayanmır, ara-sıra mətbuatda məqalələrlə çıxış edir, xalq maarifinin inkişafına yardım göstərir, yeni dərsliklərin hazırlanmasında iştirak edirdi.

## Sovetlərin “xalq düşməni”

65 illik ömrünü, sağlamlığını, xoşbəxtliyini, bilik və bacarığını yalnız xalqının maarifi, azadlığı, istiqlalı yolunda qurban verən Ömər Faiq əfəndi sovetlərin gözündə “xalq düşməni” oldu. Niyə? “Bəsdir, ayıl! Başını bir az yuxarı qaldır. Öz varlığının, öz vücudunun qiymətini bil. İndiyə qədər yadlar üçün, özgə varlıqlar və vücudlar üçün özünü həlak etmisən, bundan sonra ayıl, bir özünə gəl, öz gününə çalış” deyərək millətini azadlığı uğrunda mübarizəyə çağırdığı üçün. “Stalinə, Marks, Engels, Lenin babalarına mədhiyyə yazmadığı üçün! “Oktyabr övladı” ola bilmədiyi üçün!

Faiq əfəndi ömrünün son illərini xatirələri üzərindəki gərgin işə sərf etmişdir. Təəssüf ki, Ömər Faiq xatirələrini bitirməyə macal tapmamışdır. O, 1937-ci ilin yayında

Axalsıxda öz ata yurdunda dincələrkən, iyulun16-da rayon prokurorunun sərəncamı ilə həbs edilmiş və 3 ay sonra, oktyabrın 10-da Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığının nəzdindəki "Üçlüyün" qərarı ilə güllələnmişdir. 1958- ci ildə Gürcüstan SSR Ali məhkəməsi ona bəraət vermişdir.

Beləliklə, bütün yuxarıda deyilənlərdən aydın olur ki, nümunəvi bir həyat və yaradıcılıq yolu keçmiş qorxmaz və cəsur publisist Ömər Faiq Nemanzadə Azərbaycan milli mədəniyyətinin, professional mətbuatının, xalq maarifinin və ictimai şüurumuzun inkişafına mühüm təsir göstərən ziyalılardan biri olmuşdur.

## ƏSƏRLƏRİ



- Nəşri-asarə dəvət (1905)
- Bizə hansı elmlər lazımdır (1907)
- Əsərləri (məqalələr, felyetonlar, xatirələr) 1983
- Xatirələrim (1985 )
- Seçilmiş əsərləri (1992)
- Seçilmiş əsərləri( 2006)
- Nəşri-asarə dəvət( 2013)
- Xatirələrim(2014)
- Xatirələrim (2015)

# Haqqında yazılmış bəzi əsərlər

**Mirzə Ələkbər Sabir. "Soldumu gülzarın ey Faiqi-Neman pesər?"**
**Muxtar Qasımov. Mollanəsrəddinçi Ömər Faiq Nemanzadə (1872–1938)**
**Vahidov F.Q. Ömər Faiq Nemanzadənin dünyagörüşü.**
**Rzayev S.M. Ömər Faiq Nemanzadənin ədəbi-publistik fəaliyyəti.**
**Abbas Zamanov. Ömər Faiq Nemanzadə**
**Bəxtiyar Vahabzadə. Yanar ürək**
**Bəxtiyar Vahabzadə. Ömər Faiq Nemanzadə haqqında**
**Firidun Hüseynov. Ömər Faiq Nemanzadə**
**Yusifova T. Ömər Faiqin həmişəyaşar "Xatirələr"i türk dilində**
**Kəbutər. Məktəb əyan oldumu…**
**Qalibə Hacıyeva. Ömər Faiq Nemanzadənin əsərlərində dil və dilçilik məsələləri (metodik vəsait)**
**Taleh Cəfərov. 1905–1906-cı il Tiflis hadisələri Ömər Faiq Nemanzadənin gözü ilə**
**Vahid Ömərov. Ömər Faiq Nemanzadə və azərbaycançılıq ideyası**
**Oqtay. Ömər Faiq Nemanzadənin publisistikasında milli dil problemi.**
**Dilqəm Əhməd. Ömər Faiq Nemanzadə haqqında**
**Cəfər Mustafayev. Kafkasya türklerinden Ömer Faik Numanzade'nin hayatı və faaliyetleri (1872–1937)**

*“Bir millətin yaşaması dili ilədir. Dil yoxluğu millət yoxluğudur... Mən inanmam ki, dilini sevməyən millətini sevsin, çünki dil millətin tək nişanıdır... Milli dildə danışmaq istəməyənin millətpərəstlikdən dəm vurması yalançılığın təzə modasından özgə bir şey ola bilməz”.*

**Ömər Faiq Nemanzadə**

# ÖMƏR FAİQ İRSİNİN KİTABXANALARDA TƏBLİĞİ



İstedadlı qələm sahibi, publisist, jurnalist və ictimai xadim, görkəmli mollanəsrəddinçi, Ömər Faiq Nemanzadə XX əsr Azərbaycan milli mətbuatının inkişafında, xalqımızın milli dirçəlişi və xoşbəxt gələcəyi uğrunda mübarizədə yaxından iştirak etmiş və ictimai-fikir tariximizdə öz dəst-xətti ilə tanınmış mütərəqqi ziyalılarımızdan biridir.

Gənc nəslin yüksək mənəvi-əxlaqi dəyərlər ruhunda tərbiyə olunmasında, oxucuların mənən kamilləşməsində Ömər Faiq yaradıcılığı bugün də aktuallığını itirməyib. 2022-ci ilin dekabr ayında Azərbaycan milli mətbuatının böyük nümayəndəsi, görkəmli publisist, tanınmış maarifçi və ictimai xadim Ömər Faiq Nemanzadənin anadan olmasının 150 ili tamam olur. Bununla əlaqədar olaraq kitabxanalara tədbirlər planı hazırlamaq və buna müvafiq işlərin həyata keçirilməsi tövsiyə olunub. İlk öncə kitabxanada Faiq əfəndinin həyat və yaradıcılığı ilə bağlı elektron məlumat bazasının hazırlanması və keçirilən tədbirlər zamanı onlardan istifadə olunması tövsiyə olunur. Elektron məlumat bazasını hazırlayarkən kitabxanaçılar öz kitabxana fondları ilə yanaşı, Milli Kitabxananın fondunda və elektron kitabxanasında olan resurslardan istifadə edə bilər.

**Nümunə:**

## “Ömər Faiq Nemanzadə”
## Elektron məlumat bazası

- **Rəsmi sənədlər**
- **Həyat və yaradıcılığı**
- **Görkəmli şəxslər Faiq Əfəndi haqqında**
- **Əsərləri**

***Azərbaycan dilində***
***Rus dilində***

- **Haqqında**

***Kitablar***
***Məqalələr***
***Dissertasiyalar***

- **Xatirəsinin əbədiləşdirilməsi**

***Adına ucaldılmış heykəl və büst***
***Portretlər***
*Adını daşıyan mədəniyyət, elm və təhsil müəssisələri, küçə, qəsəbə və meydanlar*
*Ev-muzeyi*
*Poçt markası*

- **Fotoqalereya**
- **Videoqalereya**

Elektron məlumat bazasına mövzu ilə əlaqədar tammətnli ədəbiyyatı daxil edərkən siz Milli Kitabxananın (www.anl.az) və digər kitabxanaların elektron resurslarından yararlana bilərsiniz. Məlumat bazası vaxtaşırı yenilənməli, yeni məlumatlar daxil edilməli və eləcə də kitabxananın təşkil etdiyi bir sıra tədbirlərdə məlumat bazasından istifadə edilməlidir.

**Virtual sərgi.** Yubiley ərəfəsində kitabxanalarda daha çox istifadəçini məlumatlandırmaq, hətta kitabxanaya gəlmək imkanı olmayan şəxsləri Ömər Faiqin yaradıcılığı ilə yaxından tanış etmək məqsədilə virtual kitab sərgilərinin təşkili ən təsirli vasitələrdən biri hesab edilir. Virtual kitab sərgiləri kitabxananın fondunda mövcud olan ənənəvi və elektron resurslar əsasında tərtib olunur. Slaydlar şəklində hazırlanan sərgidə Nemanzadə ilə bağlı məlumatlar, kitablar, qəzet və jurnal məqalələri, izahlı mətnlər, audiovizual sənədlər və s. öz əksini tapa bilər. Sərgini hazırlayan zaman kitabın üz qabığını, biblioqrafik təsvirini, annotasiyasını və əgər mümkünsə kitabın onlayn versiyasını və ya linkini də virtual sərgidə yerləşdirmək olar. Virtual kitab sərgisini hazırlayan zaman siz öz mövcud kitabxana fondlarınız ilə yanaşı, Milli Kitabxananın fondunda və elektron kitabxanasında olan elektron resurslardan da yararlana bilərsiniz.

**Nümunə**: Virtual kitab sərgisi hazırlayan zaman kitablar üz qabığı ilə birlikdə əlavə olunur.

**Slayd 1**: Sərginin başlığı

**“DİL VƏ MƏTBUAT FƏDAİSİ”**

**Slayd 2:** ***“****Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 03 oktyabr 2022-ci il// Respublika.– 03 oktyabr.-S.1.*

https://president.az/az/articles/view/57451

**Slayd 3: Ömər Faiq Nemanzadənin əsərləri**

- ***Nemanzadə, Ömər Faiq****. Seçilmiş əsərləri [Mətn] /Ömər Faiq Nemanzadə ; tərt. ed., ön sözün və izahların müəl. Ş. Qurbanov.-Bakı: Şərq-Qərb, 2006.-352 s.: 21 sm.*
- ***Seçilmiş əsərləri [Mətn]*** */Ö. Faiq Nemanzadə ; toplayan, tərtib edəni, ön sözün. Ş. Qurbanov ; red. K. Talıbzadə.-Bakı: Yazıçı, 1992.-530, [6] s.: portr., 21 sm.*

- ***Xatirələrim [Mətn]*** */Ö. F. Nemanzadə ; red. K. Məmmədov ; hazırlayan, müqəddimə və şərhlərin müəl. Ş. Qurbanov.-Bakı: Gənclik, 1985.-124, [4] s.: 20 sm.*

**Slayd 4: Ömər Faiq Nemanzadə haqqında yazılan kitablar**

- ***Faiq Nemanzadə [Mətn] /Ş. Qurbanov ; Azərbaycan SSR "Bilik" Cəmiyyəti.-Bakı: [s.n.], 1985.-45, [3] s.: 20 sm***
- ***Qurbanov, Şamil Dünyamalı oğlu.*** *Ömər Faiq Nemanzadə [Mətn] /Ş. D.Qurbanov; rəyçi. A. Zamanov; red. E.Fərruxzadə.-Bakı: Gənclik, 1992.-208 s.: portr., fotoşək., şək., 22 sm.*
- ***Sanılı, Hacı Kərim.*** *Üçüncü il [Mətn] : kənd məktəbləri üçün /H. K. Sanılı, F. Nemanzadə, H. Axundov.-Bakı: Azərnəşr, 1930.-156, [4] s.: portr., şək., 27sm.*

**Slayd 5: Qəzet və jurnallarda dərc edilən məqalələr**

- ***Mətbuat fədaisi*** *- Ömər Faiq Nemanzadə [Mətn]//Şərq.-2013.- 12 sentyabr.- S. 11.*
- *Azərbaycanın görkəmli ədibi Ömər Faiq Nemanzadə [Mətn]//Azadlıq..-2011.- 17-18 iyul.- S. 14.*
- *Vahabova, Səadət. Ömər Faiq Nemanzad[Mətn]/S.Vahabova//Azərbaycan:2016.-№1.- S.199-205.*
- *Ömər Faiq Nemanzadə... O, həm də milli ideyaların carçısı kimi tanınmışdı [Mətn] /Şəymən//Şərq.-2014.- 4 mart.- S.11.*
- *Ömər Faiq Nemanzadə və azərbaycançılıq ideyası [Mətn] /V.Ömərov//Səs.-2012.- 24 may.- S. 14.*

**Slayd 6: Şairin xatirəsini əbədiləşdirmək məqsədilə buraxılan marka və zərflərin, xatirə abidəsinin, büstünün fotoşəkilləri**

**Slayd 7: Kitabxananın ünvanı, əlaqə telefonları, saytı və e-mail ünvanı.**

**Açıq qapı:** Bir gün ərzində Ömər Faiq Nemanzadə günü elan etmək olar. Açıq qapı günü Ömər Faiq Nemanzadə günü olduğu üçün kitab müzakirəsi, biblioqrafik xülasə, slayd şəklində hazırlanan sərgi və s. keçirmək olar. Ziyalı haqqında hazırlanmış virtual sərgi ilə də oxucuları tanış etmək.

**Viktorinalar.** Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə publisistin yaradıcılığı haqqında biliklərini yoxlamaq üçün onların iştirakı ilə viktorinaların keçirilməsi tövsiyə olunur.

1. Ömər Faiq Nemanzadə neçənci ildə və harada anadan olub?
2. İlk dəfə mətbuat dünyasına nə vaxt daxil olmuşdur və hansı mətbəədə çalışmışdır?
3. Neçənci ildə və nəyə görə İstanbula gedir?
4. Hansı yazıçı ilə təsadüf onun gələcək fəaliyyətində mühüm rol oynayır?
5. Azərbaycan xalqının milli şüurunun oyanmasında rol oynayan “ilk mədəni müəssisə” hansıdır?
6. Faiq əfəndi 1907-ci ildə nə üçün həbs olundu?

7. Ömər Faiqin publisistik fəaliyyətindəki əsas prinsiplər nələr idi?

Kitabxanamızda "**Xalqın maarifləndirilməsində Nemanzadə xidmətləri**", "**Ömər Faiq yaradıcılığında Azərbaycançılıq ideyası"** və ya **"Ömər Faiq Nemanzadə Azərbaycan üçün qaranlıqdan doğan işıqdır**" mövzusunda **dəyirmi masa** keçirmək olar. Dəyirmi masaya Ömər Faiq tədqiqatçılarını, ədəbiyyatşünasları, regional mədəniyyət idarələrindən, müxtəlif təşkilatlardan nümayəndələri, rayon ziyalılarını dəvət etmək lazımdır. Oxucuları publisistin həyat və yaradıcılığı, ictimai fəaliyyəti ilə daha yaxından tanış etmək üçün keçiriləcək tədbirin mövzusu, dəvət olunacaq qonaqlar, onların çıxışları qabaqcadan dəqiqləşdirilməli, hazırlıq işləri planlı şəkildə həyata keçirilməlidir. Dəyirmi masa keçirilərkən "Ömər Faiq Nemanzadə" adlı sərginin nümayişi, elektron məlumat bazasının təqdimatı da tədbir iştirakçıları üçün maraqlı olardı. Tədbirə daha çox oxucu cəlb etmək üçün dəyirmi masanın keçirilməsi haqda anons kitabxananın saytında elan edilir, sosial şəbəkələrdə paylaşılır. Əhalinin sosial şəbəkələrdən fəal istifadə etdiyini nəzərə alsaq, kitabxanaçı da sosial şəbəkələrdə fəal olmalı Ömər Faiqin həyat və yaradıcılığı, ayrı-ayrı əsərləri, "Molla Nəsrəddin" jurnalı haqda məlumatlar, kitabxanaya daxil olmuş və ya kitabxana fondunda olan kitablar, dövri mətbuatda çap edilən məqalələr barədə vaxtaşırı informasiyalar verməli və daha çox insanları Ömər Faiq irsi ilə tanış etməlidir.

**Telekonfranslar**. Böyük ictimai xadim və publisist Ömər Faiq Nemanzadənin yubileyi münasibətilə kitabxanalarda təşkil olunacaq digər tədbirlərdən biri də telekonfransların keçirilməsidir. Telekonfrans əsasən (telefon vasitəsilə, audiokonfrans, çat, poçt vasitəsilə konfrans, videokonfrans və s.) Windows əməliyyat sistemində Microsoft NetMeeting proqramı vasitəsilə həyata keçirilir. Bu proqram uzaq məsafədə səs və video əlaqələrin təşkili, eləcə də internet vasitəsilə onlayn görüş və konfransların keçirilməsi üçün nəzərdə tutulmuşdur. Telekonfransa hazırlaşarkən kitabxanaçı mövzunun müəyyən edilməsi, ünsiyyət dilinin seçilməsi, iştirakçıların dəvət olunması, müzakirələrin idarə olunması və onlara yekun vurulması kimi təşkilati işləri həyata keçirir. Telekonfransın əsas üstünlüklərindən biri də iştirakçı tərkibinə, sayına, həmçinin, telekonfransın müddətinə heç bir məhdudiyyətin qoyulmamasıdır. Ömər Faiqin yubileyi ilə əlaqədar kitabxanalar "**Ömər Faiq Nemanzadənin ədəbi irsi**", "**Nemanzadə yaradıcılığında Azərbaycançılıq ideyası**" və s. mövzularda regionlararası, region daxilində, eyni zamanda MKS daxilində kitabxana filialları öz aralarında telekonfrans keçirə bilərlər. Hazırlıq müddətində kitabxanaçı konfransda çıxış edəcək şəxsləri müəyyən etməli, onlarla sıx əlaqə saxlamalı, proqram tərtib etməli və iştirakçıların onlayn qeydiyyatdan keçə bilmələri üçün veb ünvan müəyyən etməlidir. Ən sonda sosial şəbəkələrdə, kitabxananın saytında, yerli qəzetlərdə konfransla bağlı elan və ya anons yerləşdirilməlidir.

## *ÖMƏR FAİQ NEMANZADƏ haqqında dəyərli fikirlər*

*Ömər Faiq Nemanzadə ( 1872-1938) Azərbaycan mədəniyyətinin o tarixi simalarından biridir ki, onlar bütün ömürlərini xalqın inkişafı naminə heç nədən çəkinməyən, yorulmaq bilmədən fəaliyyətə, böyük hərfli Mütəfəkkir – Vətəndaş fəaliyyətinə həsr etmişlər və bu böyük fəaliyyət nə qədər ali, işıqlı olmuşsa, şəxsi həyat bir o qədər acı, uğursuz və etibarsız olmuşdur."*

**ELÇİN ƏFƏNDİYEV**
Xalq yazıçısı

*Bu ürəyin bircə amalı var: Xalqı düşdüyü vəziyyətdən xilas etmək, onu dünyanın ən mədəni xalqları ilə eyni səviyyədə görmək! " Bunun üçün nə lazımdır?" deyə Ömər Faiq düşünür. İlk növbədə xalqın gözünü açmaq, ona nəyin ağ, nəyin qara olduğunu başa salmaq, əlindən tutub ona yerimək oyrətmək! "Bəs bunun üçün nə lazımdır?" deyə yenə düşünür, işığa yol axtarır : Elm! Xalqın savadlanması!"*

**BƏXTİYAR VAHABZADƏ**
Xalq şairi

*Ömər Faiqin jurnalistik fəaliyyətinin əhatə etdiyi illərin çətin şəraitində onun gördüyü böyük işləri təsəvvür etmək "Molla Nəsrəddin" in 1906-1907-ci illərdəki nömrələrini yüngülcə nəzərdən keçirmək kifayətdir... Yalnız onda hiss etmək olar ki, bu inqilabi ideyalar fədaisi özünü nece təhlükələrə düçar edirmiş.*

***

*Ömər Faiqi 1906-1910-cu illərdə daha yaxından tanıdım. Şərq dilləri üzrə senzor kimi xidməti vəzifəmlə əlaqədar olaraq onun leqal və qeyri-leqal bütün yazılarını oxumalı olurdum... O, şüurlu şəkildə həyatını riskə qoymuşdu, deyirdi: "ya ölmək, ya da son məqsədə çatmaq." "O, öz mətbəəsində Azərbaycan dilində inqilabi xarakterli müxtəlif kitablar, intibahnamələr, dəvətlər çap edərək dəfələrlə həbs və sürgün təhlükəsi yaradırdı.*

***MİRZƏ ŞARİF MİRZƏYEV***
Tiflis senzor komitəsində müsəlman
mətbuatı üzrə baş senzor

# ÖMƏR FAİQ NEMANZADƏNİN QİYMƏTLİ FİKİRLƏRİ

*Bir millətin yaşaması dili ilədir. Dil yoxluğu millət yoxluğudur... Mən inanmam ki, dilini sevməyən millətini sevsin, çünki dil millətin tək nişanıdır... milli dildə danışmaq istəməyənin millətpərəstlikdən dəm vurması yalançılığın təzə modasından özgə bir şey ola bilməz.*

***Ey sadə ürəkli türk, dünən, bu gün öz varlığını, öz mədəniyyətini göstərə bilib, indi sənə "köhnə barbar" gözü ilə baxıb bugünkü mədəniyyətlərin haqsızlıqlarına baxıb incinmə.***

***Ey özündən xəbərsiz türk! Mədəniyyət əsrləri, nizam, idarə və asayiş üsulu "yasaq" qanunları hənüz Bağdad, Şam, Paris və Londonda yox ikən, sənin yurdunda var idi.***

***Hə, ey türk! İstər darıx, istərsə qarıx, yaxandan əl çəkən deyiləm. Sən hər şeyi öyrənmək istədiyin halda niyə bircə zadı – yəni özünü bilmək istəmirsən, niyə öz varlığından, öz vücudundan, öz soy və nəslindən xəbərin yox? Niyə sənə "Kimsən?" dedikləri vaxt həqiqi cavabında aciz qalırsan?***

***Doğru, bu gün o işıq sönən kimi görünür, lakin əsla sönməz, çünki o işıq özgə işıqdır, çünki özümüz kimi işığımız da qəribə xasiyyətlidir. Görürsən ki, bu işıq əsrlərdən bəri gah ətrafı qaplamış, bir çox yerlərdə əbədiyaşar böyük mədəni əsərlər vücuda gətirmiş, gah azalıb kiçilmiş, həm də o qədər kiçilmiş ki, indiki kimi sönəcək zənn edilmiş, lakin sönməmiş. Bir az sonra yenə birdən parlamış, qüvvətli məşəllər meydana gətirmiş, böyüdükcə böyümüş, sonra yenə alçalmış, alçalmağın son dərəcəsinə gəlmiş, hər kəs sönəcək zənn etmiş, lakin sönməmiş. Yenə parlamağa üz qoymuşdur"***

***Hər işdə camaatınköməkliyi mütləq camaatın öz qanacağı ilə, öz qəlbi və xahişi ilə olmalıdır ki, ondan bir səmərə və nəticə gözlənə bilsin.***

***Bir çox yerlərdə öz gözlərimlə görürdüm ki, qazi əfəndi öz vəhşi ərindən boşanmaq istəyən qadına: şəriət qadına boşanmağa rüsxət vermir deyərək döyə-döyə ərinə qaytarırdı. Ata-anaların bir çoxları "başlıq" deyilən behə qızlarını zorla qoca varlı kişilərlə evləndirirdilər. Bu mədəniyyətsizlik məhəlli deyil, ümumi hal almışdı. Şəriət hökm.***

*Əgər Tağıyevin açdığı qız məktəbini görməsəydim, Bakının türk maarifi üzərinə qara bir cizgi çəkəcəkdimləri qadınlığı pul ilə satın alınan mal dərəcəsinə endirmişdi.*

*Əzizim, daha nə olacaq? Qafqazlıların bu sıxıntı halətində osmanlının, İranın belə müsibətli günlərində siz hələ boş din bəhsləri ilə vaxt keçirirsiniz. Belə bəhsləri özgə millətlər 300 il əvvəl eləyirdi. Halbuki, siz bu gün, o da fəlakətli günlərinizdə eləyirsiniz. Buna görə 300 il əvvəlki qəzetlər bizim üçün köhnədir, Allah üçün deyiniz: bunların yazdıqları ilə 500 il əvvəlki adamların fikirləri və adətləri arasında nə fərq var?*



*Kütlədəki dini mövhumat ikinci dərəcəli amildir, onu əsas maraqlandıran gündəlik yaşayış, daha açığı, qarın məsələsidir."*

*Biz də vaxta görə çalışmalıyıq. Zaman dəyişir, dünya dəyişir, hər millət, hər zərrə dəyişir. Nə vaxta qədər qəflət yuxusunda yatacağıq? Qiyamətə qədər kor gəlib, kor gedəcəyik? Qafil doğulub, qafil öləcəyik? Boynumuzdakı bu ağır cəhalət zəncirlərini, qəflət yüklərini məşhərə qədərmi götürəcəyik?*

*Aman, nə yaman xasiyyətimiz var. Bir işin, bir tədbirin siftəsində cuşa gəlirik, barıt kimi alovlanırıq, göylərə qalxırıq. Lakin çox keçməyir ki, yenə sükutlaşırıq.*

*Dövlətlilərimizin xalqdan fərqi yoxdur. Dövlətlilərimiz də avamdırlar, nadandırlar. Nəyə pul xərcləyəcəklərini bilmirlər, onların müəllimi yoxdur, onların yol göstərəni yoxdur.*

*Bu gün həm də kiçik millətlərin, xüsusilə məhkum millətlərin öz varlıqlarını, öz hüquqlarını saxlamaq iddiası ilə bu qədər qan tökülən bir vaxtda bizim özümüzü tanımamazlıq bəlası, dərin düşünülürsə, qarayaradan da, taun çibanından da daha acılı və daha zəhərlidir. Hər kəs öz millətini tanıyıb onun yolunda ağladığı, onun yolunda gözünü kor etdiyi böylə bir həngamədə biz öz millətimizi sevmək deyil, onun hətta quru adını da bilməyib ortada şaşıb qalmışız. Çoxdan çürümüş əqidələr, təriqətlər tiryəkisinin beynimizə verdiyi sərsəmliklə hərlənib durururuz.*

# ƏDƏBİYYAT

1. **Azərbaycan publisistikası antologiyası** [Mətn] /tərt. ed. C. Bəydili (Məmmədov).-Bakı: Şərq-Qərb, 2007.-687, [1] s.: 22 sm.
2. **Azərbaycanın görkəmli ədibi Ömər Faiq Nemanzadə [Mətn]**//Azadlıq..-2011.- 17-18 iyul.- S. 14.
3. **Faiq Nemanzadə [Mətn]** /Ş. Qurbanov ; Azərbaycan SSR "Bilik" Cəmiyyəti.-Bakı: [s.n.], 1985.-45, [3] s.: 20 sm
4. **Xatirələrim [Mətn] /Ö. F. Nemanzadə** ; red. D. Əhməd ; lay. rəhbəri Ş. Sadiq ; naşir M. Xan ; mətn tərtibatı P. Fazilqızı ; dizayn və qrafika T. Fərzi ; rəssam V.Səftərov.- [Bakı]: XAN, [2014].-166, [2] s.: portr., 20 sm.
5. **Qurbanov, Şamil Dünyamalı oğlu.** Ömər Faiq Nemanzadə [Mətn] /Ş. D.Qurbanov; rəyçi. A. Zamanov; red. E.Fərruxzadə.-Bakı: Gənclik, 1992.-208 s.: portr., fotoşək., şək., 22 sm.
6. **Mətbuat fədaisi - Ömər Faiq Nemanzadə [Mətn**]//Şərq.-2013.- 12 sentyabr.- S. 11.
7. **Nemanzadə, Ömər Faiq.** Seçilmiş əsərləri [Mətn] /Ömər Faiq Nemanzadə ; tərt. ed., ön sözün və izahların müəl. Ş. Qurbanov.-Bakı: Şərq-Qərb, 2006.-352 s.: 21 sm.
8. **Ömər Faiq Nemanzadə və azərbaycançılıq ideyası [Mətn]** /V.Ömərov//Səs.-2012.- 24 may.- S. 14.
9. **Ömər Faiq Nemanzadə...** O, həm də milli ideyaların carçısı kimi tanınmışdı [Mətn] /Şəymən//Şərq.-2014.- 4 mart.- S.11.
10. **Sanılı, Hacı Kərim. Üçüncü il [Mətn] :** kənd məktəbləri üçün /H. K. Sanılı, F. Nemanzadə, H. Axundov.-Bakı: Azərnəşr, 1930.-156, [4] s.: portr., şək., 27sm.
11. **Seçilmiş əsərləri [Mətn]** /Ö. Faiq Nemanzadə ; toplayan, tərtib edəni, ön sözün. Ş. Qurbanov ; red. K. Talıbzadə.-Bakı: Yazıçı, 1992.-530, [6] s.: portr., 21 sm.